**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**Təsdiq edirəm:**
**"İqtisadiyyat" kafedrasının**
**müdiri: i.ü.f.d., dos.S.İ.Hümbətova**
**04 fevral 2025-ci il**

# "İQTİSADİ FİKİR TARİXİ" fənni üzrə

# İŞÇİ TƏDRIS PROQRAMI
**(Sillabus)**

## I. Fənn haqqında məlumat

**Fənnin kodu:** 00438

**Fənnin növü:** məcburi

**Tədris ili:** 2024-2025

**Tədris semestri:** Yaz

**Fakültə:** Iqtisadiyyat və idarəetmə

**Tədris yükü:** 60saat (mühazirə - 30/məşğələ -30)

**Kredit sayı:** 4 kredit

## II. Müəllim haqqında məlumat

**Fənni tədris edən müəllim:**

**E-mail ünvanı:**

**İş telefonu:**

**Tələbələr üçün qəbul vaxtları:**

## III. Tələb olunan dərslik və dərs vəsaitləri

1. İqtisadi təlimlər tarixi M.X.Meybullayevin red. İlə Bakı-2002, səh.415

**Əlavə ədəbiyyat:**

1. Q.S.Əlləzov İqtisad elminin nəzəri metodoloji əsaslarının tarixi imkişafı Bakı- 2009, fəsil 1. Səh. 327
2. A.Anikin. Elmin gəncliyi Bakı-1987, fəsil 1

## IV. Fənnin təsviri

Bu fənn əsas fənnləri siyahısına daxil olmaqla, bakalavr pilləsində təhsilalanlara tarixi aspektdən ilkin iqtisadi təlimlərin ortaya çıxma zərurətini, iqtisadi fikir tarixində təkamül prosesini, iqtisadi məktəblərin fundamental konseptlərini, iqtisadi məktəblərin yanaşmalarını müqayisəli təhlilini habelə müasir fikir və yanaşmaları şərh edə bilmək üçün lazım olan təhlil bacarıqları, vərdişləri aşılayır.

Fənnin təqrisi prosesində iqtisadi inkişafa təkan verən cərəyanları, məktəbləri və konsepsiyaları, iqtisadi azadlıq, iqtisadi insan, ”görünməz əl” anlayışlar ideyasının elmi dövriyyəyə gətirilməsini, Rikardonun xarici ticarət nəzəriyyəsi ”müqayisəli üstünlük” nəzəriyyəsini təhlil etməyi, alman tarixi məktəbinin metodologiyasını fərqləndirən cəhətləri və yenilikləri, iqtisadi hadisə və proseslərə tarixi mövqedən yanaşılmasını izah etməyi, marjinalist nəzəriyyəsinin subyektiv qiymətləndirmə əsasında istehsal xərcləri, tələb-təklif və qiyməti izah etməyi, faydalılıq həddi prinsipinin müəyyən edilməsi və riyazi metodlardan istifadə tələbələrə zəruri biliklər verilir və təhlil bacarıqları aşılanır.

## V. Fənnin məqsədi və vəzifələri

**“İqtisadi fikir tarixi” fənni – 4 kreditdir.**

Fənnin tədrisində məqsəd tələbələrdə iqtisadi fikirlərin yaranması və təkamülünün öyrənilməsidir. Bunun üçün keçmiş iqtisadi nəzəriyyələr, həmçinin iqtisadiyyatın ötən əsr ərzində necə inkişaf etdiyi müasir iqtisadi nəzəriyyələr nöqteyi-nəzərindən öyrənilir. Mövzular elə seçilmişdir ki, təkcə keçmişin böyük iqtisadçılarının iqtisad elminin inkişafına verdiyi töhfələr deyil, həm də onların üzləşməli olduqları problemləri öyrənməklə tələbələr müasir problemləri həll etmək üçün təkliflər əldə edə bilərlər. Həmçinin fənnin məqsədi bəşər tarixinin müxtəlif inkişaf mərhələlərində yaranmış iqtisadi fikirlərin və təlimlərin sistemli şəkildə şərh olunması, dünyada yaranan iqtisadi fikirlərin təşəkkülü, formalaşması və inkişafının əsas qanunauyğunluqlarının üzə çıxarılmasından, istər orta istər azad bazar iqtisadiyyatı və istərsə də tənzimlənən bazar iqtisadiyyatı kimi səciyyələndirilən hazırki dövrün iqtisadi fikirlərin mahiyyətinin sistemli şəkildə tədris olunmasından ibarətdir.

İqtisadi fikir tarixi fənninin əsas vəzifəsi tələbələrə A.Smitdən başlamış rasional gözləmələr məktəbinə qədər iqtisadiyyatın mərkəzi şəxsiyyətlərinin iqtisadi nəzəriyyələrin dərindən öyrənilməsidir.

## VI. Öyrənmənin nəticələri:

“İqtisadi fikir tarixi” fənninin mənimsənilməsindən sonra tələbələr:

**Bilmәlidirlәr:**

- İqtisadi mәktәblәrin nәzәriyyәlәrin qiymәtlәndirmәyi vә tәnqidi qiymәtlәndirmәyi
- İqtisadiyyatın formalaşması vә inkişafında әsas problemlәrin öyrәnilmәsi vә tәhlilindә müxtәlif mәktәblәrin baxışlarında istifadә etmәyi
- Cәmiyyәtin iqtisadi hadisәlәrini ilk sistemli şәkildә işlәyәn merkantilistlәrin nәzәri vә iqtisadi siyasәt sahәsindәki fikirlәrinin dövlәt siyasәtindә әksini tәhlil etmәyi;
- İqtisadiyyatın bütöv şәkildә tәhlilini aparan klassik mәktәbin fikirlәrini qәbul edәn vә ona tәnqidi yanaşan nәzәriyyәçilәrin iqtisadi görüşlәrinin şәrhini;
- Neoklassik nәzәriyyәçilәrin mikrosәviyyәdә qısa vә uzunmüddәtli dövrlәrdә bazar fәaliyyәtinin prinsiplәrini hәyata keçirmәyi, mәhsul vә xidmәtlәrin qiymәtlәndirilmәsindә sintetik qiymәt nәzәriyyәsindәn istifadәni;
- Sosial bazar tәsәrrüfatı nәzәriyyәsinin müәlliflәri olan neoliberalizmin xarakterik xüsusiyyәtlәrini tәhlil etmәyi vә onların xüsusi sahibkarlıga makroiqtisadi mövqedәn yanaşılmasını qiymәtlәndirmәyi;
- Monetarist siyasәtin iqtisadiyyatın bütün әsas problemlәrinә (qiymәt, işsizlik, inflyasiya, gәlirlәrin nominal sәviyyәsi) pul tәdavülü prizmasından yanaşmasını;
- İqtisadi hadisәlәrin adәtlәr, hüquqi vә әxlaqi normalar vә әnәnәlәr kimi izah edәn İnstitusionalist mәktәbin kapitalist iqtisadiyyatı üzәrindә sosial nәzarәtin zәruriliiyinin әsaslandırılmasını;
- Dünya tәsәrrüfatı haqqında nәzәriyyәdә beynәlxalq ticarәtin tәnzimlәnmәsindә neoklassiklәrin vә neokeynsçilәrin fikirlәrinin beynәlxalq әmәk bölgüsü vә ticarәt şәrtlәrinin dәyişmәsi sәbәblәrinin müәyyәnlәşdirmәyi;

## VII. Kursun proqramı

Proqram 15 mühazirә, 15 seminar olmaqla 60 akademik saatlıq tәdris moduluna әsaslanır. Proqram mühazirәlәr, müzakirәlәr, tapşırıqlar vә mәşqlәr, qrup işi әhatә edir. Proqramın müddәti 15 hәftәdir.

## VIII. Prerekvizitlәr:

Fәnnin tәdrisi üçün öncәdәn İqtisadiyyata giriş, Mikroiqtisadiyyat, Makroiqtisadiyyat fәnnin tәdrisi vacibdir.

**Mövzu 1.** İqtisadi fikir tarixi bir elm kimi. Qәdim dünyanın iqtisadi fikirlәri
**Mövzu 2.** Orta әsrlәrin iqtisadi fikirlәri
**Mövzu 3**. İqtisadın bir elm kimi yaranması. Merkantilizm. **U.Petti**
**Mövzu 4**. İqtisad elmindә yeni cәrәyan. Fiziokratizm. P.Buagelberin iqtisadi fikirlәri..
**Mövzu 5.** Klassik iqtisadi mәktәbin yaranması. A.Smit
**Mövzu 6.** Klassik iqtisad elminin inkişafı. D.Rikardo
**Mövzu 7**. Klassik iqtisad elminin tәnqidi vә tәkamülü (S.Sismonde, T.R.Maltus, J.B.Sey, C.Mill, C.S.Mill)
**Mövzu 8.** Marjinalist iqtisadi fikirlәr.
**Mövzu 9**. Sosialist iqtisadi mәktәbi vә Marksizm
**Mövzu 10.** Alman tarixi mәktәblәri.
**Mövzu 11**. Neoklassik iqtisadi mәktәb.
**Mövzu 12.** Keynsçilik.
**Mövzu 13**. Neoliberalizm. Monetarist iqtisadi fikirlәr.

**Mövzu 14**. İnstitusionalizm.
**Mövzu 15**. Müasir iqtisadi nəzəriyyələr

## IX. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## X. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında universitetin veb saytındakı tələbə kabinetində yerləşdirilir.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| s/s | Mövzuların adı | Mövzunun əsas məzmunu | Saat | Mühazirə tarixi |
|---|---|---|---|---|
| **1** | **İqtisadi fikir tarixi bir elm kimi. Qədim dünyanın iqtisadi fikirləri** | İqtisadi fikir tarixinin öyrənilməsinin zəruriliyi<br>İqtisadi fikir tarixinin predmeti, metodu və inkişaf mərhələləri<br>İqtisadi fikir tarixinin strukturu, əsas nəzəriyyə və istiqamətləri<br>Qədim Şərqdə və antik dünyada iqtisadi biliklərin meydana gəlməsi və inkişafı<br>Qədim dövlətlərdə -(Misir, Babilistan, Hindistan, Çin, Yunanıstan, Roma) iqtisadi fikrin yaranması. Ksenofontun, Platonun, Aristotelin iqtisadi baxışları | **2** | |
| **2** | **Orta əsrlərin iqtisadi fikirləri** | Orta əsrlərdə iqtisadi biliklərin yaranması və inkişaf istiqamətləri. İslamda iqtisadi baxışlar<br>Sxolostika: kateqoriyaların sistemləşdiril-məsinin ilk təcrübəsi. Xristianlıqda iqtisadi baxışlar.<br>Protestantizm<br>Qərbi Avropanın iqtisadi ideyaları. Kononist iqtisadi nəzəriyyələr.<br>A.Blajenin və F. Akvinskinin ideyaları<br>İ. Xaldunun iqtisadi görüşləri. N.Gəncəvinin sosial-iqtisadi ideyaları.<br>N.Tusinin nəzəri- iqtisadi fikirləri | **2** | |
| **3** | İqtisadın bir elm kimi yaranması. Merkantilizm. | İqtisadi nəzəriyyələrin yaranmasının əsas istiqamətləri | **2** | |

| | | | | |
|---|---|---|---|---|
| | **U.Petti** | Merkantilizm iqtisadi fəaliyyəti, iqtisadi hadisə, prosesləri, qanunauyğunluqları ilk sistemli öyrənən nəzəri-praktiki sistem kimi<br>U.Pettinin nəzəriyyəsi və metodologiyası | | |
| **4** | **İqtisad elmində yeni cərəyan. Fiziokratizm.P.Buagelberin iqtisadi fikirləri.** | Fiziokratlar məktəbinin yaranmasının tarixi şəraiti və tədqiqatlarının obyekti<br>F.Kene fiziokratlar məktəbinin banisi kimi və onun iqtisadi baxışları<br>J. Tyurqo tərəfindən fiziokratizmin inkişaf etdirilməsi və dəyərin, kapitalın, əmək haqqının, siniflərin izahı | **2** | |
| **5** | **Klassik iqtisad elminin yaranması. A.Smit** | Klassik siyasi iqtisad məktəbinin yaranmasının tarixi şəraiti və əsas əlamətləri<br>Klassik siyasi iqtisadın təkamül mərhələləri<br>A.Smitin elmi sistemi və metodologiyası | **2** | |
| **6** | **Klassik iqtisad elminin inkişafı. D.Rikardo** | D.Rikardonun nəzəriyyəsi klassik siyasi iqtisadın zirvəsi kimi<br>D.Rikardonun baxışlarının formalaşmasının tarixi şəraiti<br>D.Rikardonun elmi sistemi və metodologiyası | **2** | |
| **7** | **Klassik iqtisad elminin tənqidi və təkamülü (S.Sismonde, T.R.Maltus, J.B.Sey, C.Mill, C.S.Mill)** | Klassik siyasi iqtisad məktəbinə tənqidi mövqedə duranların baxışları<br>S.Sismondinin iqtisadi nəzəriyyələri<br>T.R.Maltus nəzəriyyəsi<br>J.B.Sey iqtisadi nəzəriyyəsi<br>C.Mill nəzəriyyələri<br>C.S.Mill nəzəriyyələri | **2** | |
| **8** | **Marjinalist iqtisadi fikirlər** | Marjinalizmin yaranması, inkişaf mərhələləri, metodoloji əsasları<br>Marjinalizmin İngiltərə və Lozanna məktəbi<br>Avstriya məktəbi və onun metodologiyası | **2** | |
| **9** | **Sosialist iqtisadi məktəbi və Marksizm** | Marksist iqtisadi məktəbi yaranması şəraiti<br>K.Marks təliminin iqtisadi mahiyyəti və xüsusiyyətləri<br>K.Marksın ”Kapital”əsəri.<br>F.Engelsin “Anti-Durinq” əsəri | **2** | |
| **10** | **Alman tarixi məktəbləri** | Almaniyada siyasi iqtisadın meydana gəlməsi.<br>F.List, onun iqtisadi baxışları<br>Almaniyada tarixi məktəbin yaranması və inkişafı<br>Almaniyada sosial məktəb və onun metodologiyası | **2** | |
| **11** | **Neoklassik iqtisadi məktəb** | Kembric-Amerikan məktəbi və onun metodologiyası<br>A.Marşallın tədqiqat metodu və məhsuldarlıq həddi nəzəriyyəsi<br>C.Klarkın tədqiqat metodu və məhsuldarlıq həddi nəzəriyyəsi | **2** | |
| **12** | **Keynsçilik (C.M.Keynsin** | Makroiqtisadi tənzimləmə nəzəriyyəsinin yaranması | **2** | |

| | | | | |
|---|---|---|---|---|
| | **iqtisadi fikirləri)** | C.M.Keynsin iqtisadi nəzəriyyəsi və metodologiyası<br>Keynsçi cərəyanlar ortodoksal keynsçilik (neokeynsçilik), postkeynsçilik yeni keynsçilik | | |
| **13** | **Neoliberalizm. Monetarist iqtisadi fikirlər** | Neoliberalizmin nəzəri metodoloji əsasları<br>Neoliberalizmin nəzəriyyələri<br>Monetarizmin pul-kredit vasitəsilə tənzimləmə proqramı<br>İqtisadiyyatın tənzimlənməsi haqqında monetarist və keynsçilərin alternativ baxışları | **2** | |
| **14** | **İnstitusionalizm** | İnstitusional iqtisadiyyatın yaranması, inkişafı və tətbiqi parametrləri<br>İnstitusionalizm.<br>Təhlilin metodologiyasının və predmetinin xüsusiyyətləri<br>XIX əsrin axırı və XX əsrin əvvəllərində Amerikan institiusionalizmi və onun əsas istiqamətləri.<br>Ənənəvi və ya köhnə institusionalizm.<br>Yeni institusionalizm və ya neoinstitusionalizm. | **2** | |
| **15** | **Müasir iqtisadi nəzəriyyələr** | Təklif iqtisadiyyatı nəzəriyyəsi<br>Səmərəli gözləmə nəzəriyyəsi<br>Neoklassik sintez nəzəriyyəsi | **2** | |
| | **Yekun:** | | **30** | **30** |

**XII. Fənnin tədrisində istifadə ediləcək ədəbiyyat siyahısı**

**Əsas ədəbiyyat:** “İqtisadi təlimlər tarixi”. Dərslik.Bakı, 2002. 415 səh.
“İktisadi düşünce tarihi” Abdullah Mesud Küçükkalay İstanbul 2019
William J.Barber A History of Economic Thought Paperback – June 15, 2009

**Əlavə ədəbiyyat:**

- Economic Theory in the Twentieth Century, AnIntellectual History—Volume II 1919–1945.
Economic Theory in an Age of Crisis and Uncertainty
History of Economic Theory (Volume 26) (Advanced Textbooks in Economics, Volume 26)
A History of Economic Theory and Method 1997

**SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;

4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;

5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

**DƏRSƏ DAVAMİYYƏT**

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

**FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ** ***(Əyani təhsilalma forması üzrə)***

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.
Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

**B = (((b1+b2+b3+...+bn)/s)*m)/10**

**Burada,**

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;

10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - “əvəzgün” verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir. Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən fənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

**İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ**

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

***QEYD:*** İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.